*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 1*
*Səhifə: 192-197*
*https://doi.org/10.59849/2663-4406.2024.1.192*

*ISSN: 2663-4406*
*E-ISSN: 2709-2699*

# Şeyx Məhəmməd Rasizadənin publisistik poeziyası

**Lütviyyə Əsgərzadə**
Filologiya elmləri doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: asgerzadelutviyye@yahoo.com.tr

**Annotasiya.** "Şərq qapısı" qəzeti Naxçıvanın, həm də bir əsrlik tariximizin salnaməsidir. Qəzet, səhifələrində siyasiləşən mətbuatımızın 70 illik tarixini (1922-1991), xüsusilə XX əsrin ikinci onilliyindən sonra ölkəni bürüyən sovet ideologiyası, cəmiyyətdə gedən proseslər: sovetləşmə, kolxozlaşma, sənayeləşmə, islahatlar, çağırılan qurultaylar, qurultaylardan irəli gələn məsələlər, qolçomaqlarla mübarizə və s. əks etdirir. Qəzetin dəyişən dünyanın, sovet ideologiyasının nəfəsi çökmüş materiallarında (1922-1939) bunu hiss etmək çətin deyil. Doğma yurdun, yaşanmış tariximizin salnaməsi sayılan "Şərq qapısı" qəzeti sosializmin, həmçinin maarifpərvər Şeyx Məhəmməd Rasizadənin də həyat və fəaliyyətinə, yaradıcılığına güzgü tutan önəmli mənbədir. 1906-cı ildən dövri mətbuatda dərc olunan Şeyx Məhəmməd "Şərq qapısı" qəzetinin fəallarından olmuş, dövrün diktəsi ilə yazdığı publisistik yazıları və "publisistik poeziya"sı, əsasən bu qəzetdə çap olunmuşdur. Məqalədə Şeyx Məhəmməd Rasizadənin publisistik poeziyası incələnəcək.
**Açar sözlər:** Şeyx Məhəmməd Rasizadə, "Şərq qapısı" qəzeti, publisistik poeziya, maarifpərvər

**Məqalə tarixçəsi:** göndərilib – 25.01.2024; qəbul edilib – 15.02.2024

# Publicistic poetics of Sheikh Muhammad Rasizade

**Lutviyya Askarzade**
Doctor of Philological Sciences
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: asgerzadelutviyye@yahoo.com.tr

**Abstract.** The "Sherg gapisi" newspaper is a chronicle of both our native land – Nakhchivan – and our century-long history. The 70-year history of our politicized press (1922-1991) on the pages of the newspaper, especially the Soviet ideology that swept the country after the second decade of the 20th century, the processes taking place in society: sovietization, kolkhozization, industrialization, reforms, convened congresses, issues arising from the congresses, struggle with armbands, etc. reflects.
It is not difficult to feel this in the materials of the newspaper (1922-1939) that were filled with the breath of the changing world and the Soviet ideology. The "Sherg gapisi" newspaper, which is considered to be the chronicle of our native land and our lived history, is an important source that holds a mirror to the life, activities, and creativity of socialism, as well as the enlightened Sheikh Muhammad Rasizadeh.
Since 1906, Sheikh Muhammad was one of the activists of "Sherg gapisi" newspaper, which was published in the periodical press, and his journalistic writings and "publicist poetry" written by the dictates of the time were mainly published in this newspaper. In the article, the journalistic poetry of Sheikh Muhammad Rasizadeh will be analyzed.





**Keywords:** Sheikh Muhammad Rasizade, "Sherg gapisi" newspaper, publicistic poetry, enlightened

**Article history:** received – 25.01.2024; accepted – 15.02.2024

## Giriş / *Introduction*

Bir əsrlik yol qət edən "Şərq qapısı" qəzeti birəsrlik "tariximizin salnaməsi"dir. Qəzet, səhifələrində siyasiləşən mətbuatımızın 70 illik tarixini (1922-1991), xüsusilə XX əsrin ikinci onilliyindən sonra ölkəni bürüyən sovet ideologiyası, cəmiyyətdə gedən proseslər: sovetləşmə, kolxozlaşma, sənayeləşmə, islahatlar, çağırılan qurultaylar, qurultaylardan irəli gələn məsələlər, qolçomaqlarla mübarizə və s. əks etdirir. "Şərq qapısı" qəzetinin o illərdə çıxan saylarını izləməklə dövrün "heç bir tarixdən çıxarıb atmaq mümkün olmayan" (Dmitri Bıkov) ictimai-siyasi və ədəbi-mədəni mənzərəsini yetmiş illik sovet ədəbiyyatını, Rusiyanın və bütün dünyanın ictimai fikir tarixində özünəməxsus ziddiyyətli personası ilə tanınan A.İ.Soljenitsın "Sovet İttifaqı rəhbərlərinə məktubunda" "20-ci əsrin qorxunc yumoru" adlandırdığı sosializmin vəsfini izləmək mümkündür, xüsusən, qəzetin ilk 20 illik saylarında çap edilən məqalələrin adlarında, məqalələrdə və şeirlərdə istifadə olunan imzalarda və s. Qəzetin dəyişən dünyanın, sovet ideologiyasının nəfəsi çökmüş materiallarında (1922-1939) bunu hiss etmək o qədər də çətin deyil. Doğma yurdun, yaşanmış tariximizin salnaməsi sayılan "Şərq qapısı" qəzeti maarifpərvər Şeyx Məhəmməd Rasizadənin də həyat və fəaliyyətinə, yaradıcılığına güzgü tutan önəmli mənbədir. Bu səbəbdən araşdırmamızı Naxçıvanda "əsaslı və davamlı şəkildə" çap olunan "Şərq qapısı" qəzeti üzərində aparmağı məqsədəuyğun sayırıq.

## Əsas hissə / *Main part*

1906-cı ildən dövri mətbuatda dərc olunan Şeyx Məhəmməd "Şərq qapısı" qəzetinin fəallarından olmuş, dövrün diktəsi ilə yazdığı publisistik yazıları və "publisistik poeziya"sı, əsasən bu qəzetdə çap olunmuşdur. Şeyx Məhəmmədin bədii yaradıcılığı geniş olsa da, təəssüf ki, az bir hissəsi, ən önəmlisi də sovetlər üçün gərəkli, günümüz üçün az əhəmiyyətli sayılan nümunələr bizə gəlib çatmışdır. Şeyx Məhəmməd "Yeddi qız", "1914-cü il" poemaları ilə yanaşı, "Fırtına quşu şairinə" – Maksim Qorkiyə, Mirzə Fətəli Axundova, M.Ə.Sabirə şeirlər həsr etmiş, "Qadın iki quruluşda", "Yeni dünya" adlı şeirlər də yazmışdır. Şeyx Məhəmmədin şeir həsr etdiyi, "Fırtına quşu şairi" Maksim Qorki də Şeyx Məhəmməd kimi gah bolşevikləri dəstəkləyib, gah amansızcasına tənqid edən, gah həbs edilənlərin müdafiəsinə qalxıb, gah da repressiyalara haqq verib. Dövrana ayaq uydurmuş, bir çox şairlər kimi, Şeyx Məhəmməd Rasizadə də ideologiyaya uymayan yaradıcılığının ona zərər gətirəcək böyük bir qismini məhv etmişdir. Zərərsiz, qorxusuz bilib saxladıqları isə o dövr üçün yararlı saydıqlarıdır. Bunun üçün Şeyx Məhəmməd Rasizadəni qınamayaq, çünki 70 illik ədəbiyyatımız bu ideologiyaya köklənmişdi. Bunun üçün o illərdə ölkədəki gərgin ictimai-siyasi vəziyyəti, zamanın sözçüsünə, partiyanın "təkrarçiyi və vintciyi"nə çevrilən Azərbaycan mətbuatının mənzərəsini izləmək, həmin dövrdə çap olunan yazıların başlıqlarına nəzər salmaq kifayətdir.

Bolşeviklərin mətbuatın və ədəbiyyatın qarşısına qoyduğu vəzifələri yerinə yetirmək üçün mətbuatımızda və ədəbiyyatımızda böyük bir yarış başlamış, mətbuatla qoşa addımlayan ədəbiyyatımızda "təsərrüfat və istehsalat" mövzusu ədəbi fikrin baş mövzusuna çevrilmiş, kollektivləşmə hərəkatı, təsərrüfat məsələləri, qolçomaqlarla mübarizə ədəbiyyatımızı ağuşuna almışdı. Şairlər ən gözəl şeirləri Leninə, Stalinə, traktora, pambığa, neftə və s. yazırdı. İdeologiyanı alqışlamayanlar, məsələn, Şeyx Məhəmmədin qardaşı filosof şair-dramaturq Hüseyn Cavid, "doğru yol"a dəvət edilir, seçdiyi mövzulardan dolayı kəskin tənqid edilirdi. "Tənqidçilər qardaşı Cavidin, niyə kolxozdan, traktordan, pambıqdan yazmırsan", – deyərək üzünə bozaranda, Şeyx Məhəmməd, traktorçulara da ("Traqtorçulara") şeir yazmış, kolxozun naxırına ("Kolxoz naxırına"), pambığın

nübarına ("Pambıq nübarı") da. Qardaşların, Hüseyn Cavidin və Şeyx Məhəmmədin eyni gündə, eyni qəzetdə ("Ədəbiyyat qəzetəsi", 6 fevral 1935) dərc olunan, mütəfəkkir Cavidin "Şərq qadını", Şeyx Məhəmmədinsə rejimi alqışlayan şeirləri fikrimizin təsdiqidir.

Şeyx Məhəmməd, sovet cəmiyyətinin "yeni insan", "yeni əşər" tələbinin nə olduğunu, "insan"ın və "əfkar"ın, "fəlsəfə" və "əşər"ın dəyişdiyini bilirdi. 1920-1930-cu illərdə ədəbi prosesi izləyən, Şeyx Məhəmməd, yeni mərhələnin yaradıcılıq tendensiyalarına da münasibət bildirirdi. Onun "damarında bolşevik qanı axan traktorçuya" həsr etdiyi şeiri bu tendensiya ilə yazdıqlarından biridir. Şeirə nəzər salmaq, dövrü və dövrün şairini anlamağa kifayət edir: "Qarşımızda vardır 5 illik plan,/ Qolxozlara bizlər verməliyiz can./Azərbaycan, Ə........n, Gürcüstan / Beynəlmiləl qızıl traqtorçuyam" [6, s.3]. Və ya "Aqşam çaqı naxır qayıdan zaman ruhunda başqa bir həyacan doqan" şairin həyacanlarını – "20-ci əsrin qorxunc yumoru"nu izləyək: "Aqşam çaqı naxır qayıdan zaman /Doqur ruhumda başqa bir həyacan./Zatən bunlar da canlı bir şeirdir./Hamının payı var bu mal qaradan,/Rəhbərin özüdür bunu yaradan" [7, s.2].

Bu şeirləri oxuduqca Şeyxin necə ağır məhrumiyyətlərlə üz-üzə qaldığını, hansı səbəblərdən yazdığını anlamaq o qədər də çətin deyil. "Ordenli diyar"ı, bu diyarın əmək zərbəçisini, əsrin yeni kadrolarını şeirlə alqışlamış, "Yeni qadrolar" adlı şeirdə, özünü də "bu dünyanı quranlardan", "mədəniyyət baqının baqbanlarından", "sosyalist yurdunun qəhrəmanlarından", "yeni dünyanın yeni insanlarından" biri olaraq təqdim edir: "Sosyalist dünyası quranlarıq biz", "Dəyişən dünya"da "dəstədən geridə qalmamaq üçün" sovet ideologiyasının tələblərinə uyğun mövqe nümayiş etdirən Şeyx Məhəmmədin bu şeirlərini akademik R.Hüseynov "Ünvanları hər mətləbi anladan mənzumələr" adlandırır. Şeyx Məhəmməd, "hər mətləbləri anladan mənzumələr"i qəzetdə dərc olunandan sonra "Naxçıvanda şura platformasına gələn qoca yazıçılardan biri" kimi təqdim olunur.

İdeologiyanın hakim olduğu ziddiyyətli, mürəkkəb, bomboz dövran insanları da özünə bənzədib, təbii ki bunu hamıya aid etmək olmaz. Deyirlər ki, insanlar mühitinə bənzəyir. Mühitin yazıçısı, şair, tənqidçisi də öz mühitinə bənzəyir. Şeyxin şeirlərinə münasibət də ikili xarakter daşıyıb. Əbdül Kazım (Ordubadlı) imzalı müəllif yazılarında gah "Dəyərli parçaları olan" Şeyxi alqışlayıb, "Azərbaycanın bütün oxucularının" onu tanımasını arzulayıb, gah da "köbnə şeir dilini hələ yerə qoymadığına görə" tənqid edib. Dini təhsil alan, Quranı orijinaldan oxuyan, ərəbi və farsı ana dili qədər mükəmməl bilən Şeyxin dili necə olmalı imiş? Şeyx, yolunu, əbasını, "şapkasını" dəyişdiyi kimi dilini, üslubunu da dəyişməli imiş. Və dəyişirmiş, dəyişməyə məcbur edilirmiş. Bu dəyişmənin nəticəsidir ki, Azərbaycanda ərəbdən latına keçərkən, Şeyx Məhəmməd, ərəb əlifbası ilə yazdığı bir şeirində" Azərbaycanda ərəbdən latına keçilməsini, "Türk elinin zirdən, zəbərdən", "tənvindən, nöqtədən, məddən, təşdiddən", "iki gözlü "ha"dan, əlif-həmzədən," "girdə "ta", girdə "kaf" və uzun "kaf"dan qurtulduğunu" alqışlamışdı: "Əskiliyə dərin quyu qazdılar, /Tarixə bir qızıl səhfə yazdılar."

Şeyx Məhəmməd bu şeiri yazmağa məcbur idi. Çünki ruhani təhsilli Şeyx Məhəmməd Rasizadə bunu yazmasaydı, latının, yeniliyin düşməni elan ediləcəkdi. Bu şeirləri yazan tək Şeyx Məhəmməd deyildi, adlı-sanlı, sonralar "Xalq şairi" adını almış şairlər də yazırdı. Dinin və dindarın, daha çox yüksək təhsilli insanların gözdən salındığı bir dövrdə yaşayırdı Şeyx Məhəmməd (sonralar həbs olunaraq məhv edildilər). Allahsızlar cəmiyyətinə nə din, nə Şeyx lazım deyildi (tələbəsi akademik Məmməd Cəfər Cəfərov xatirələrində Şeyx Məhəmmədin divar qəzetində "evində gizlincə başında şapka namaz qılan" karikaturasının verilməsindən bəhs edir). Yəni Şeyx Məhəmmədin dönüb Məhəmməd Rasizadə olması səbəbsiz deyildi. Təəssüf ki, nə Şeyxin qələminə yaraşdırmadığımız şeirlər, nə Məhəmməd Rasizadə olması onu sığortalaya bilmir. Qardaşı Hüseyn Cavidin adı sovet çeksti ədasıyla işləyən tənqidçilərin qara siyahısına düşdükdən sonra onun da başından fəlakətlər əskik olmur. Şeyxə mənəvi hücumlar başlayır. Gah maaşı gec verilir, böyük ailəsi olan Şeyx Məhəmməd çörəklə imtahan edilir, gah siyasi ittihama məruz qalır, etibarsız sayılır, gah da kitabxanası əlindən alınır. Ona kəsilən 9 axcanı ala bilməyən M.Füzuli kimi, maaşı vaxtında verilməyən Şeyx Məhəmməd "Şikayətnamə" adlı satirik qitəsini yazır. Hüseyn Cavidin qardaşı olduğu üçün rejimdən qınaq yeyən, sözün məcazi mənasında "döyülən, əzilən, həyatı mənəvi sıxıntılarla və güzəran dərdi çəkməklə keçən şairin" "Şikayətnamə"si yaşadıqlarının poetik ifadəsidir. Şeyxin, özünü şeirləri ilə hər kəsi təftiş edən rejimə təqdim etməsi bu sıxıntıların yaşanmaması üçündü. Adının önündəki Şeyx kəlməsi Allahsız bolşeviklərlə tərs mütənasibdi və onun ittiham olunması üçün ciddi səbəbdi. Amma Sovetləri alqışlayan Şeyx Məhəmməd də, əsərlərində traktorun səsi eşidilməyən, kolxoz, partiya adı çəkilməyən qardaşı Cavid də tənqid və ittiham olunurdu. Hüseyn Cavid Bakıda həbs olunduqdan sonra bu təqib və təzyiqlər daha da güclənmişdi. Çalışdığı məktəbin müdiri siyasi cəhətdən etibarsızlaşdırmaq üçün ədəbiyyat müəllimi Məhəmməd Rasizadədən bir tələbdə bulunmuşdur: "Zikur Texniqumun müdriyyəti tərəfindən tələb olunur "... gec ... olmamaq şərti ilə hər tələbənin ədəbiyyat dərsinə aid yazdığı dəftərindən bizə bir dənəsini bütün siniflərdən toplayıb müdriyyətə təqdim edəsiniz. Texniqumun midiri. "Sözsüz ki, müdiriyyətin tələbinə əsasən dəftərlər toplanmış, tələbələrinin yazdıqları yoxlanılmış və axtarılan "əsaslar" tapılmış və 31 il xalqa, maarifə xidmət edən Məhəmməd Rasizadə işdən azad edilmişdi. 1937-ci ilə aid bir arxiv sənədində yazılır: "Rasizadə Məhəmməd Abdulla oğlu. Müəllimlik stajı 31 ildir. Ruhani məktəbini bitirmişdir. Azərbaycan dili və ədəbiyyat müəllimidir. Qardaşı keçmiş şair Hüseyn Cavidin xalq düşməni olduğu ifşa edilmişdir. İndiki zamanda siyasi münasibəti inandırıcı deyil, etibarsızdır, hətta xarici görünüşünə görə də Saqqal saxlayır ("Носит бороду") [5] Respublika yazıçılarının yığıncağında öz qardaşını ifşa etməmişdir, əksinə qardaşını "bəxtsiz Cavid" adlandırır. Siyasi cəhətdən savadsız adamdır. Onu heç vəchlə pedaqoq kimi saxlamaq olmaz." Şeyx Məhəmmədin Respublika yazıçılarının yığıncağında canından çox sevdiyi qardaşı Hüseyn Cavidi ifşa etmədiyi üçün siyasi münasibəti inandırıcı sayılmamış, hətta xarici görünüşünə görə, saqqal saxlayan Şeyx Məhəmməd etibarsız sayılmışdır. Siyasi cəhətdən etibarsız sayılan Şeyx Məhəmməd təlaşla ona zərər gətirəcək yazılarını gecələr gizlincə, göz yaşları içərisində yandırmış, külünün qalmasından ehtiyatlanıb Bazar çayına axıtmışdır. Aydındır ki, "Rindanə xisləti ilə hər şeyi duyan" Şeyxin əsl yazıları, məhz gecələr gizlincə yandırıb, külünün belə qalmasından ehtiyat etdikləri idi. Məhv etmədikləri, qəzet səhifələrinə çıxartdıqları ilə Şeyx Məhəmməd sadəcə "kommunizm yezidlərinin qarşısında rafizlik etmişdi".

Ehtiyatlanan, tək Şeyx Məhəmməd deyildi. Onunla birlikdə Naxçıvanın öyrənilməsində misilsiz xidmətlər göstərən Mirheydər Mirheydərzadə də özünü və yazdıqlarının bir qismini qorumaq məqsədi ilə aparıb şəhərin kənarında, Naxçıvan çayının sahilində torpağa basdırmışdır. M.Mirheydərzadənin nəslindən olan Şəhla Əliyevanın "Nuh yurdu" qəzetində çap olunmuş (2001) məqaləsində yazılır: "O dövrdə dəfələrlə evində axtarışlar aparılmışdır. Özü isə hər dəfə gizlənməyə məcbur qalmışdır. Bir dəfə isə çarəsiz qalıb mənzilindəki çox nadir, qiymətli kitabları, özünün əksər əlyazmalarını bir çuvala doldurub Naxçıvan çayının sahilində torpağı qazıb gizlətmişdir... Sonralar isə onların əksəriyyəti məhv olmuş, bəzilərinin tək-tük saralmış vərəqləri qalmışdır..." [1].

Şeyxin Məhəmmədin siyasi durumu M.Mirheydərzadədən fərqli idi. O, sovetləri qətiyyətlə qəbul etməyən, mütəfəkkir Hüseyn Cavidin qardaşı idi. Şeyx Məhəmməd etməsə də, bunu "mədəniyyət yaradan insanlarımızın şəxsi münasibətlərinin göstəricisi olmuş yazılı sənədlər"i məhv etmiş "kommunizm yezidləri" edəcəkdi. Fikrimizcə, tədqiqatçı A.Turanın "kommunizm yezidləri" ifadəsi hər şeyə açar ola biləcək bir ifadədir.

Bu yaxınlarda tədqiqatımızla əlaqədar olaraq Hüseyn Cavidin Naxçıvandakı ev muzeyində olduq. Burada Şeyx Məhəmmədə aid qovluqda əski əlifba ilə yazılmış "Kiçik məktəbli Türk qızı" adlı bir şeirinin əlyazmasını aşkarladıq. Şeir, qardaşı Cavid Əfəndinin "Qız məktəbində" şeiri qədər olmasa da, səmimi və gözəl duyğularla yazılıb:

*Gözəl bir baharın axşam çağında*
*Oynuyor türk qızı baxçalarında*
*Sanki bülbül oxur gül büdağında*
*Oxuyur, oynuyor kiçik türk qızı*
*Şu gözəl baxçada nə gözəl güllər*

*Üçür kələbəklər oxur bülbüllər*
*Bunların cümləsi hüsnünü dinlər*
*Baxçada oynayan kiçik türk qızı.*
*İlkin qalxıb həmən baxçaya fırlar*
*Gözəl çiçəkləri o dərər, toplar*
*. . .  əlində gül dəstəsi*
*Məktəbə aparır kiçik türk qızı"**

Şeiri çap etdirməsə də, nə hikmətdirsə Şeyx Məhəmməd əlyazmasını saxlayıb. Halbuki şeirdəki "Türk qızı" sözü onu töhmətləməyə, işdən çıxarmağa, sovetlərə düşmən elan etməyə yetərdi. Şeyx Məhəmməd Rasizadənin ilk dəfə tərəfimizdən aşkarlanan şeirlərindən biri də 24 iyul 1924-cü ildə vəfat edən tələbəsi Cavad Şərifin ölümünə yazdığı şeirdir. Cavad Şərif Şeyx Məhəmmədin Naxçıvan erkək (zikur – yəni oğlanlar) müəllimlər məktəbində tələbəsi, Əziz Şərifin kiçik qardaşı idi. Şeir, "R.M" imzası ilə "Hörmətli Əziz Şərifə Cavad Şərif üçün" qeydi ilə yazılıb.

*Dördüncü ildönümü Naxçıvanda*
*Xalq gülüb şadlıq edən zamanda***
*Qohum-qardaş ağlaşırdı o anda*
*Kəndisini öldürürdü anan da.*

*Boyuna büküldü Cavadın kəfən,*
*Unudulmaz oldubu dərdi-mihən.*
*Heç unutmam bundan sonra temmuzu,*
*Bu ayda o vida eylədi bizə.*

*Ağlar qoydu anasını,əzizi*
*İşıq yolun şərafətli yıldızı (yulduzu).*
*Üful etdi, yeni tilu edərkən*
*Dünya bizə oldu bir beytül-həzən*

Cavad, 1988-ci ildə ölərkən nə Moskvada, nə də Fəxri xiyabanda deyil, doğulduğu Naxçıvanda, ailəsinin; atası Qurbanəli Şərifzadənin, anası Nazlı xanımın və qardaşı Cavadın yanında torpağa tapşırılmasını istəyən Əziz Şərifin ölənə qədər unutmadığı qardaşıdır. Professor Əziz Şərif illər sonra yaxın dostu Abbas Zamanova yazdığı məktubda (1973, 24 dekabr) "üçlü" məsələsinə toxunarkən 13 yaşında vəfat etmiş qardaşı Cavadın ölümünü xatırlamışdır: "... Bir şeyə qənaət etdim. Üçlüyə. Qardaşım Cavad 13 yaşında, atam Qurbanəli 63 yaşında, anam Nazlı 83 yaşında. Qaldı 4-cü 3. Dördüncü üç. Görəsən bu kimə qismət olacaq". "4-cü 3" 93 yaşında Əziz Şərifə qismət oldu.

Şeirin ilk misralarında 26 İyul 1924-cü ildə Naxçıvanda Sovet hakimiyyətinin elan olunmasının 4 illiyinin bayram kimi qeyd olunması diqqəti çəkir. Şeyx Məhəmməd bir gəncin vaxtsız ölümünə həsr olunan şeirdə belə bunu qeyd etməyi unutmur. Beləliklə, "xalqın mənəvi pasportu, onun həyatının aynası", "insanşünaslıq" [4] sayılan ədəbiyyat ağır ideoloji basqı altında sovetşünaslığa çevrilir. Nəticədə, mətbuat səhifələrini "Azərbaycan ədəbiyyatı və yazmağa başlayanlar haqqında", "Kolxozçu aşıq", "Kolxoz naxırı", "Zərbaçılar", "Təyyarəçi Leyla", "Naxırçı balası", "Azad ellər", "Aprel qızına", "Sosialist ölkəm" (1936-cı il), "Kəskin cavab", "Qızıl and", "Zəfər ordusuna", "Lenin", "Şanlı gün" adlı şeirlər və yazılar bəzəyir. Ruhani təhsili almış, Şeyxlik rütbəsinə yüksəlmiş, gözəl müəllimliyi ilə yanaşı, həm də istedadı olan və "yollar ayrıcında buraxılan" Məhəmməd Rasizadə də ideologiyaya uyaraq şeirlər yazmaqla dövrə öz töhfələrini verir. Əslində, Şeyx Məhəmməd şeirlərində bütöv bir quruluşun, sistemin, A.İ.Soljenitsının "20-ci əsrin qorxunc yumoru" adlandırdığı sosializmin mənzərəsini yaratmışdır, desək yanlış olmaz...

* *Şeir ilk dəfə çap olunur.*

** 26 iyul 1924-cü ildə Naxçıvanda Sovet hakimiyyətinin elan olunmasının 4 illiyi qeyd olunur. Şeir bir gəncin vaxtsız ölümünə həsr olunsa da, 4 illiyə də işarə edilir.





**Nəticə / *Conclusion***

Maarif xadimi, elm və din yolçusu Məhəmməd Rasizadədən bəhs edərkən hər an təfəkkürümdə, beynimdə yaşatdığım əzəmətini, böyüklüyünü hiss etmək və hiss etdirmək üçün ondan daha çox "Şeyx" olaraq bəhs etdik. Şeyx Məhəmmədi "əlahəzrət tarixin əsəridir!" və tariximizdə əbədi və böyük sirr olaraq qalacaq. Əbu Turxan deyir ki, Dünya bizdən öncə yazılmışdır. Amma bəzən o bizə ağ vərəq kimi görünür və başlayırıq onu yenidən yazmağa; neçə gözəlliklər bizim cızma-qaranın altında qalır! Şeyx Məhəmməd Rasizadənin də neçə gözəl əsərləri rejimin tələbləri və özünü sığortalamaq məqsədi ilə yazdığı cızma-qaranın altında qalır!

**Ədəbiyyat / *References***


1. Əliyeva, Ş. "Nuh yurdu" qəz., – 2001.
2. Əsgərzadə, L. Fani ikən əbədi olanlar: Şeyx Məhəmməd Rasizadə / "Ədəbiyyat qəzeti", – 29 iyun, – 2022.
3. Əsgərzadə, L. Şeyx Məhəmməd Rasizadə: alim, ruhani və ədib / "525-ci qəzet", – 26 iyun, – 2022.
4. Həşimli H.M. Naxçıvanda ədəbi mühit: keçilən yola bir nəzər. – Naxçıvan: "Şərq qapısı" qəzeti, 2006, 4 avqust.
5. Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivi, f.26, s.1, iş.47/46, 56 v.
6. Rasizadə, M. Qolxoz naxırı qayıdarkən. "Şərq qapısı" qəzeti, – 1935-ci il.
7. Rasizadə, M. Traqtorcular / "Şərq qapısı" qəzeti, – 27 yanvar, – 1935-ci il, №22 (1380). – s.3.


## Публицистическая поэзия шейха Мохаммеда Расизаде

**Лютвия Аскерзаде**
Доктор филологических наук
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: asgerzadelutviyye@yahoo.com.tr

**Резюме.** Газета "Şərq qapısı" («Ворота Востока») это летопись Нахчывана и нашей истории в течение столетия. На её страницах нашла отражение 70-летняя история политизации нашей печати (1922–1991), в особенности советская идеология, правящая в нашей стране после второго десятилетия XX века, происходящие в обществе процессы советизации, коллективизации, индустриализации, реформы, созванные съезды, выдвигающие насущные вопросы, борьба с кулаками и пр. Из газетных материалов 1922–1939 гг. нетрудно ощутить грозное дыхание вульгарной советской идеологии. Газета «Шарг гапысы» это летопись нашей отчизны, истории, важный источник, в котором, как в зеркале, отражены социалистические черты, а также жизнь, деятельность и творчество просветителя Шейха Мохаммеда Расизаде. Шейх Мохаммед начал публиковаться в периодической печати с 1906 года и в особенности был одним из активных авторов газеты «Шарг гапысы», в которой сообразно с требованием времени были напечатаны его публицистические статьи и «публицистическая поэзия», которые тщательно рассмотрены в настоящей статье.

**Ключевые слова:** Шейх Мохаммед Расизаде, газета «Шарг гапысы», публицистическая поэзия, просветитель